# Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər

**"Qızım, əlil olduğum üçün iş tapmaqda çətinlik çəkirdim. Fiziki qüsurlu olsam da, tənbəlliyi, işləməməyi qəbul edə bilmirəm. Biz dağ havasını udub, orada böyüyən insanlarıq... Qüsurlu olsam da, tənbəllik bizə yaraşmır. Başçının qəbuluna getdim və məni işlə təmin etdilər. Suraxanıda əlillərin hüquqları qorunur, bizim problemlərimizlə daim maraqlanırlar".**

Bu sözləri Suraxanı rayonunun fiziki qüsurlu sakini Adil dayı dedi. Həmsöhbətimizin sözlərinə görə, Suraxanıda əlillər üçün yaradılan şərait onu tam qane edir.

Suraxanı rayonunun sosial-iqtisadi inkişafı, ümumiyyətlə, rayonda aparılan işlər göz önündədir. Bu inkişafdan sağlam, fiziki cəhətdən qüsuru olmayan insanlar normal yararlana bilir. Bəs fiziki cəhətdən qüsurlu olan insanlar necə? Rayonda onların hüquqları qorunurmu və ya əlillərin həyat səviyyələrinin yaxşılaşdırılması, iş problemlərinin aradan qaldırılması üçün hansı işlər görülüb? Bu mövzuda kiçik araşdırma aparmaq qərarına gəldik.

Suraxanıda əlillərin hüquqları qorunurmu?

Məlumdur ki, fiziki imkanları məhdud olan insanların dövlətin, cəmiyyətin dəstəyinə ehtiyacı var. Onlar bu problemlərdən daha çox əziyyət çəkirlər. Ölkəmizdə hazırda 470 mindən çox fiziki qüsurlu insan yaşayır. Bunlardan 9305 nəfəri Suraxanıdadır. Burada da fiziki qüsurlu insanların hüquqları məsələsinə diqqət göstərilir və onlarla mütəmadi görüşlər keçirilir. Bu görüşlərdən biri də 3 dekabr - Beynəlxalq Əlillər günündə baş tutub.

## ƏLİLLƏRİN HÜQUQLARI QORUNUR

Beynəlxalq Əlillər Günü münasibəti ilə Suraxanı rayon İcra Hakimiyyəti, Suraxanı rayon Əhalinin Sosial Müdafiə Mərkəzi və Suraxanı rayon Dövlət Sosial Müdafiə Fondunun birgə təşkilatçılığı ilə əmək, müharibə əlilləri, Çernobıl qəzasının iştirakçıları və müxtəlif səbəblərdən əlil olmuş 150 nəfər rayon sakini üçün "Elçin" şadlıq sarayında süfrə açılıb.

**Rayon İcra Hakimiyyəti başçısının müavini Afət Həsənova** mətbuata açıqlamasında bildirib ki, Azərbaycanda, eləcə də Suraxanıda müharibə əlillərinə, şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir: "Bu siyasətin əsası isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərin hakimiyyətə ikinci dəfə gəlişi zamanı imzalanan ilk fərmanlarından biri "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" fərman olub. Həmin fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərin sosial müdafiəsinin gücləndirilməsinə start verilib. Hazırda Suraxanı rayonunda 9305 nəfər əlil yaşayır. Onlardan 2538 nəfəri sosial əlil, 6767 nəfəri müharibə, əmək, silahlı qüvvələrdə xidmət, Çernobıl qəzası və digər əlil kateqoriyasına daxildir. Bundan əlavə, rayonda 830 nəfər 18 yaşına çatmayan əlil yaşayır. Onların hamısına dövlət tərəfindən pensiya və müavinət verilir".

A.Həsənova vurğulayıb ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan insanların problemlərinin həlli, onların həyat şəraitinin yaxşılaşdırılması, bu insanların özlərini cəmiyyətin tamhüquqlu üzvü kimi hiss etmələri üçün bütün zəruri tədbirləri həyata keçirir: "Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək" - deyən dövlət başçısının bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır".

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi ilə fond tərəfindən son illər həyata keçirilən sosial layihələr sayəsində əlillərin sosial müdafiəsi ilə bağlı mühüm irəliləyişlər əldə edilib. Mehriban Əliyevanın təşəbbüsü, diqqət və qayğısı sayəsində bir çox əlil evləri əsaslı təmir olunub, müasir standartlara tam uyğun olan yeni bərpa mərkəzləri yaradılıb. Suraxanı rayonu da bu qayğıdan kənarda qalmayıb. Heydər Əliyev Fondu Suraxanı rayonunda Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzi inşa edərək ən müasir avadanlıqlarla təchiz edib.

**Suraxanı rayon Əhalinin Sosial Müdafiə Mərkəzinin şöbə müdiri Müslüm Mürsəlov** qeyd edib ki, Bakıda və bölgələrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan 14 bərpa-müalicə müəssisəsi fəaliyyət göstərir. Son illər Azərbaycanda əlillərin mənzillə təminatı sahəsində də mühüm tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, 2014-cü il yanvar ayının 1-dək mənzil növbəsinə dayanmış 5731 nəfər Qarabağ əlili və şəhid ailəsi 2018-ci ilədək mərhələlərlə mənzil və ya fərdi yaşayış evləri ilə təmin ediləcəklər.



## VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNƏ BAXILIR

Əlillərlə yanaşı, Suraxanıda vətəndaş müraciətləri də diqqət mərkəzindədir. Rayonda vətəndaşların müraciətlərinə, onların problemlərinin həllinə həssaslıqla yanaşılır. Belə ki, müntəzəm yenilənən internet saytı, elektron poçt ünvanı, "Qaynar xətt" kimi mütərəqqi əlaqə və informasiya vasitələrindən, yerlərdə quraşdırılmış "Şikayət və təkliflər" səyyar poçt qutularından geniş istifadə edilib, elektron poçt ünvanına daxil olmuş əsasən sual və təklif xarakterli 181 elektron məktub cavablandırılıb. Elektron qaydada müraciət imkanlarının yaradılması vətəndaş-məmur münasibətlərində şəffaflığın təmin olunmasında, süründürməçiliyin, korrupsiya və vəzifədən sui-istifadə hallarının aradan qaldırılmasında mühüm rol oynayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının tövsiyəsinə uyğun olaraq, vətəndaş müraciətlərinə qeydiyyat-nəzarət vərəqələrinin açılması prosesinin təkmilləşdirilməsi və sürətləndirilməsi məqsədilə 2009-cu ildən rayon İcra Hakimiyyətində tətbiq olunan "Elektron icraçı" Avtomatlaşdırılmış İdarəetmə Sistemi proqramında bir sıra dəyişikliklər aparılıb, daxil olan və göndərilən korrespondensiyanın proqrama işlənilməsi davam etdirilib.

## SOSİAL MƏSƏLƏLƏRİN HƏLLİ PRİORİTET VƏZİFƏDİR

Rayon İcra Hakimiyyəti ölkədə davamlı olaraq həyata keçirilən sosial məzmunlu siyasətə uyğun olaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsini daim nəzarətdə saxlayır. Suraxanıda 739 ailəyə yeni sosial müavinət, 2077 ailəyə ünvanlı sosial yardım təyin edilib, 123 nəfər sanator-kurort müalicəsinə, istirahət mərkəzlərinə göndərilib, 27366 nəfər təqaüdçüyə 54,9 milyon manat pensiya ödənilib. Rayon məşğulluq mərkəzində 510 nəfər işlə təmin olunub, 114 nəfərə işsiz statusu verilib, 125 nəfərə işsizlik müavinəti təyin edilib, 44 nəfər isə peşə hazırlıq kurslarına göndərilib. Ötən il keçirilmiş əmək yarmarkalarında 45 müəssisə 878 vakansiya ilə iştirak edib, həmin yarmarkalarda 105 nəfər işlə təmin olunub.

Rayonda məskunlaşan məcburi köçkün ailələrinin, Qarabağ müharibəsi əlillərinin, Böyük Vətən müharibəsi iştirakçılarının, ahıl və tənha sakinlərin sosial-məişət problemlərinin həllinə də qayğı ilə yanaşılıb.

Vətəndaşların müraciətlərinə həssaslıq göstərilməsi, problemlərin vaxtında həll edilməsi sahəsində rayon İcra Hakimiyyətində müsbət təcrübə formalaşıb. Burada heç bir müraciət diqqətdən kənarda qalmır. Hərtərəfli araşdırılır, müraciətlərin yaranma səbəbləri təhlil edilir, qaldırılan məsələlərin həlli üçün müvafiq tədbirlər görülür. Bir fakta diqqət yetirək. Rayonda mövcud olan problemlərdən ən ciddisi-qəzalı evlərdə yaşayan sakinlərə, xüsusilə Zığ qəsəbəsində qəzalı vəziyyətə düşən yaşayış evlərinin sakinlərinə kömək göstərilməsidir. Ərazidə yaranmış vəziyyətin ciddiliyi və hər an insan tələfatı ilə nəticələnə biləcək bədbəxt hadisələrin başvermə ehtimalının yüksək olduğu nəzərə alınaraq rayon İcra Hakimiyyəti və aidiyyəti qurumların əməkdaşlarının iştirakı ilə sözügedən qəsəbədə yerləşən həmin evlərə vizual texniki baxış keçirilib, ərazinin relyefi, geoloji xüsusiyyətləri nəzərə alınmadan, eləcə də tikinti norma və qaydalarına əməl edilmədən müxtəlif illərdə inşa olunan, həmçinin uzun müddət istifadə nəticəsində aşınmaya məruz qalan evlərdən 40-a qədərinin qəzalı vəziyyətə düşdüyü müəyyənləşib. Sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə 22 ailə rayon İcra Hakimiyyətinin daxili imkanları hesabına kirayə evlərə köçürülüb.

## EKOLOGİYA

2015-ci ildə Suraxanı rayonu ərazisində ekoloji məsələlərin həlli üçün müxtəlif tədbirlər görülüb. Paytaxtın neft sənayesi rayonlarından biri olan Suraxanı üçün ekoloji məsələlərin həlli vacib əhəmiyyət kəsb etdiyindən Prezident İlham Əliyevin "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında" imzaladığı sərəncama və qəbul edilmiş müvafiq dövlət proqramına əsasən, Suraxanı rayonu ərazisində yerləşən Bülbülə və Zığ gölləri təmizlənərək ətrafları abadlaşdırılıb.

Həmçinin rayon ərazisində olan neftlə çirklənmiş hektarlarla ərazi təmizlənərək rekultivasiya olunub, ekoloji cəhətdən zərərli 20-dən çox gölməçələrin əksəriyyəti qurudulub, 30 neft quyusunun ətrafları tullantılardan təmizlənib və neft kollektorları təmir olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanan 1-ci "Ümumrespublika Yaşıllaşdırma Marafonu" çərçivəsində ağacəkmə kampaniyası Suraxanı rayonuna da öz töhfəsini verib. Keçən il rayonun müxtəlif ərazilərində 7,4 mindən artıq ağac əkilib.

## İLK AVROPA OYUNLARININ MƏSKƏNİ

2015-ci il aprelin 26-da Azərbaycanın və dünyanın idman həyatında tarixi bir hadisə baş verdi, paytaxtımızda ilk Avropa Oyunları ilə bağlı tədbirlərə start verildi. Bu Oyunların məşəli rayonda yerləşən "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda alovlandırıldı, Prezident İlham Əliyev, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak etdilər. Bu əlamətdar hadisəyədək adıçəkilən tarix-memarlıq qoruğu ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görüldü, Səttar Bəhlulzadə, İlqar Məmmədov, Şahin Məhərrəmov və Xanlar Ələkbərov küçələrində yaşayış və qeyri-yaşayış obyektlərinin fasadları və hasarlar yenidən quruldu, rəngləndi, aqlay daşları ilə üzləndi, yerüstü kommunikasiya (qaz, elektrik və telefon) xətlərinin yerin altına salınması işləri reallaşdırıldı.

Xatırladaq ki, birinci Avropa Oyunları Azərbaycanın yığma komandası, o cümlədən Suraxanı idmançıları üçün çox uğurlu oldu, karate idman növü üzrə Ayxan Mamayev qızıl, sambo üzrə Vasif Səfərbəyov gümüş, qılıncoynatma idman növü üzrə Sevil və Sevinc Bunyatova bacıları 1 gümüş və 1 bürünc medal qazandılar.

## RƏQƏMLƏR İNKİŞAFDAN XƏBƏR VERİR

Hazırda 212 mindən çox əhalisi olan Suraxanı rayonu Bülbülə, Əmircan, Qaraçuxur, Yeni Suraxanı, Yeni Günəşli, Hövsan, Zığ qəsəbələri və Dədə Qorqud yaşayış sahəsindən ibarətdir. Suraxanı bir ildə 338,3 min ton xam neft, 232,1 milyon kubmetr qaz istehsal edir. Rayonda neft və qaz çıxaran "Bahar Enerji", "Suraxanı Oyl" şirkətləri, "Qaraçuxur iriləşdirilmiş neft mədəni", "Abşeron Operating Company" və digər müəssisələr fəaliyyət göstərir. Ümumiyyətlə, burada 60-a yaxın sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da istehsal etdiyi məhsulların bir hissəsi xaricə ixrac olunur.

Bu müəssisələrin uğurlu fəaliyyəti nəticəsində Azərbaycanın sənaye məhsullarına olan tələbatının bir hissəsi ödənir, rayon əhalisinin işsizlik problemi qismən aradan qalxır. Bunu statistik göstəricilər də sübut edir. 2015-ci ilin 9 ayı üçün olan statistika göstərir ki, Suraxanı rayonunda sözügedən dövrdə 198,1 milyon manat həcmində sənaye məhsulu istehsal edilib və 2355 yeni iş yeri açılıb.

## SON

Əlbəttə ki, son dövrlər Suraxanıda görülən işləri bir yazıya sığışdırmaq mümkün deyil. Bu yazıda qeyd olunmayan çox sayda işlər görülüb ki, bunun da nəticəsində rayon əhalisinin rifah halı yaxşılaşıb, rayonun kənd və qəsəbələri abadlaşıb və ölkənin ümumi sosial iqtisadi həyatında Suraxanı rayonunun çəkisi artıb. İnanırıq ki görülən və görüləcək işlər Suraxanı rayonunu qədim mədəniyyət mərkəzi kimi nəinki Azərbaycanda, eləcə də bütün dünyada tanıdacaq.

**Aygün ƏZİZ**

**Yazı Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim edilir**